# Yurdumuza bahar gəlir

## Novruz bayramı

*Novruz qədim və böyük bayram kimi yazın gəlişi ilə əlaqədar olaraq qeyd edilir və sevincli hadisələrə - qışın bitməsi və yazın başlamasına həsr olunur.*

*Alimlərin fikrincə, bu bayramın tarixi çox qədimdir. Elmi araşdırmalara əsasən, Novruz bayramının keçirilmə tarixi qədim zamanlara - Zərdüşt peyğəmbərin dövrünə gedib çıxır. Alimlər bu bayramın yaşını minimum 3700 il, maksimum 5000 il müəyyən edirlər. Qədim Babilistanda bu bayram mart ayının 21-də qeyd edilirmiş və 12 gün davam edirmiş. Bu 12 günün hər birinin öz adət-ənənəsi var imiş. İlk yazılı abidələrdə qeyd edilir ki, Novruz bayramı eramızdan əvvəl 505-ci ildə meydana gəlib.*

*İslam xadimləri həmişə cəhd ediblər ki, bu bayrama dini çalarlar gətirsinlər. Lakin Firdovsi, Rudəki, İbn Sina, Nizami, Sədi, Hafiz və s. kimi dahi maarifçilər sübut ediblər ki, Novruz bayramı İslamdan çox-çox əvvəllər meydana gəlib. Novruz bayramına həsr edilmiş yazılı mənbələrə misal olaraq, Nizamülmülkün "Siyasətnamə", Ömər Xəyyamın "Novruznamə" əsərlərini qeyd etmək olar.*

*Təbiətin oyanması Novruz ilə başlayır və Azərbaycan xalqı Novruzun gəlişinə bir ay qalmış bu bayramın çərşənbələrini çox təntənəli şəkildə qeyd edir. Belə ki, hər həftənin çərşənbə axşamı öz adət-ənənələrinə müvafiq olaraq - Su, Od, Yel və Torpaq çərşənbəsi (ilaxır və ya bayram çərşənbəsi) qeyd edilir. Novruz bayramı qədim adətlər və oyunlarla çox zəngindir. Qədim adətlərə misal olaraq "Xıdır İlyas"ı (məhsuldarlıq, çiçəklənmə simvolu), "Kos-kosa" əyləncəli meydan oyununu və fal açmanı göstərmək olar.*

*Novruzda azərbaycanlılar bayram süfrəsini zövqlə bəzəyirlər. Süfrədə "s" hərfi ilə başlayan yeddi yemək, o cümlədən sumax, sirkə, süd, səməni, səbzi və s. olmalıdır. Bundan əlavə, süfrəyə güzgü və şam qoyulur, güzgünün qarşısına isə bəzədilmiş yumurta qoyulur. Bunun da simvolik mənası var. Şam od, işıq rəmzi, güzgü isə aydınlıq, şəffaflıq rəmzidir.*

*Ənənələrə görə, bayramın ilk gecəsi hər kəs evdə olmalıdır. Deyilənə görə, əgər Novruzun ilk günü evdə olmasan, yeddi il evdə görsənməyəcəksən. Qədim adətlərə görə, bayır qapılar bağlanmır. Novruzun ilk gecəsi səhərədək şam yandırılır: sönmüş ocaq, sönmüş şam uğursuzluq əlamətidir.*

*Novruzu qeyd edərkən, kəndlilər növbəti ilin quraq, yaxud yağıntılı keçəcəyini, məhsuldar olub-olmayacağını müəyyən edirlər. Adətlərə görə, Novruzun ilk günü yaz, ikinci günü yay, üçüncü günü payız, dördüncü günü isə qış hesab edilir. Əgər ilk gün külək və yağışsız olursa, deməli il kənd təsərrüfatı üçün uğurlu keçəcək. Əgər külək olarsa, deməli bütün il bu cür keçəcək. Son üç gündə də ilin qalan fəsillərinin necə keçəcəyi bu yolla müəyyən edilir.*

*Novruz şən və sevimli, xalqımızın bütün dəyərlərini özündə birləşdirən bayramdır.*

*Şamaxı Astrofizika Rəsədxanasından verilən məlumata görə, Bahar Azərbaycana martın 20-də saat 20.15-də daxil olacaq. Nazirlər Kabinetinin qərarına əsasən, bu il martın 20-dən 27-dək ölkədə Novruz bayramıdır.*

## Yel çərşənbəsi

İlaxır çərşənbələrdən üçüncüsü yel çərşənbəsidir.

Qədim etiqadlarda «qara nəhrdə» yatmş dörd cür külək Yer üzünə çıxaraq əvvəlcə özü təmizlənir, hər biri ayrı rəngli libasda özünü göstərir. Burada rənglərin mifik mənası var. Ağ yel - ağ libasda, qara yel - qara libasda, xəzri - göy libasda, gilavar - qırmızı libasda təsəvvür edilir. Yel çərşənbəsi günü yel bu dördlüyün məcmusundan ibarət hesab olunur və qısa müddətdə bütün dünyanı dolaşır.



Əski inamlarda yel ya özü Tanrıdır, ya da dünyanı idarə edən tərəfindən göndərilən qüdrətli bir antromorfdur. O, lazım olan insanları əzizləyir, onlara kömək edir, qəzəbləndəndə isə adamları cəzalandırır. Quranda isə yelin Allah tərəfindən göndərildiyni, onun Allahın mərhəmət və cəza antromorfu olduğu qeyd edilir. İlaxır çərşənbələrin üçüncüsünün yellə bağlanması onun müqəddəs varlıq kimi tanınmasının çox erkən vaxtlardan xalq arasında mövcud olduğunu göstərir. Şifahi xalq yaradıcılığında yelin tanrılığı ilə bağlı müxtəlif nəğmə, əfsanə, rəvayət, mif, inanc, məsəl və s. yaranıb.

Yel Azərbaycan mifik təfəkküründə yol göstərən, bələdçi rolunu yerinə yetirir. Yel baba (əksər hallarda əldən-ayaqdan düşmüş qarı sifətində peyda olur) qalın meşələrdə azıb mənzilini tapmaqda çətinlik çəkən xeyirxah insanların qarşısına çıxır, onlara bir yumaq verir və yumağı yerə atıb, diyirlətməyi tələb edir. Yel babanın üfürməsi ilə yumaq açılır və azmışları mənzil başına çatdırır.

Xalqımızın ən qədim təsəvvürlərinə görə, Yel baba xırmana gəlməmişdən qabaq oradan buğda, dən götürməzlər. Sovrulmamış buğda götürənin oğlu ölər. Xırman sovurulandan sonra ilk buğda götürənin isə oğlu olar.

Ulularımız deyirlər ki, «Yel əsdirəni söyməzlər». Çünki onun arxasında tanrı durur. Yelə tüpürsən öz üstünə qayıdar.

Yel dağına ziyarət edirlər. Adamlar ürəklərində hər hansı bir dilək tutub nəzir-niyaz gətirir, qurban kəsirlər. Yel baba kimin nəzirini, qurbanını qəbul etsə, o adam xeyir tapar, arzusuna çatar.

Maraqlıdır ki, «Yel baba» ritual nəğməsində də can üstə olan gənc qız sanki son nəfəsində üzünü küləyə tutub, ölüm xəbərini anasına aparmağı xahiş edir. Ola bilsin ki, ilkin inanışlarda Yel baba məhz dünyanın ayrı-ayrı elementləri arasında rabitə yaradan vasitə hesab edilirdi.

## Baharın elçisi: torpaq çərşənbəsi

***İlaxır çərşənbələrdən sonuncusu olan torpaq çərşənbəsi əvvəlki çərşənbələrə nisbətən öz xüsusiyyətlərinə və bayrama yaxın olduğuna görə daha təmtəraqlı şəkildə qeyd olunur. Xalq arasında axır çərşənbə "Yer çərşənbəsi", "İlaxır çərşənbə" və ya "Torpaq çərşənbəsi" də adlandırılır. Axır çərşənbə Novruz çərşənbələri arasında ən dəyərlisi, qiymətlisidir. Qədim zamanlardan axır çərşənbə xalq arasında ən əziz günlərdən hesab edilib. Torpaq çərşənbəsində təbiət oyanır, torpaq nəfəs alır, hamı bayramı xoş ovqatla qarşırlamağa çalışır. Torpaq çərşənbəsi xalqı sanki əməyə səsləyən carçı rolunu oynayır. Belə ki, artıq təbiət oyandığı, torpaq canlandığı üçün əkin-biçin dövrü də başlanır. Yerlər şumlanır, toxumlar səpilir. Yazın gəlməsi ilə işgüzarlıq da özünü göstərir.***

Digər çərşənbələrdə olduğu kimi torpaq çərşənbəsinin də əsrlərdir ki, qorunub saxlanan özünəməxsus inancları vardır. Bu çərşənbədə səhər tezdən insanlar bulaq başına və ya su üstünə gedər, suyun üzərindən tullanar, ürəklərindəki arzu-diləkləri suya danışarlar. Axır çərşənbəyə bir neçə ay qalmış evlər təmizlənir. Deyilənə görə, bu bayramda təzə paltar geyinmək uğur gətirər. Axır çərşənbə günü insanın əməli, niyyəti, nəfsi də təmizlənmiş olar. Torpaq çərşənbəsində süfrəmizin gözəl təamlarından olan paxlava, şəkərbura, qoğal və bir çox şirniyyatlar hazırlanır. Şirniyyatların süfrəyə qoyulması bütün ilin bərəkətli, ruzili və həmişə şirin keçməsini mənalandırır. Süfrəyə şamların qoyulması, xonça bəzədilməsi mütləqdir. Rəngbərəng yumurta boyanır, məcməyi və sinilərdə xonça bəzənir, şam yandırılır, tonqal qalanır, səməni qoyulur, dünyasını dəyişənlərin xatirəsi yad edilir, küsülülər barışır, qohum-qonşular bir-birinə qonaq gedir, pay göndərirlər. Bu çərşənbədə qapı pusulur, su falına baxılır. Axır çərşənbədə meydan tamaşaları göstərilir, qodu-qodu mərasimi keçirilir. Kəndirbaz oyunları, xoruz döyüşməsi, güləş, xan-vəzir oyunu insanlar tərəfindən böyük coşqu ilə qarşılanır.



İlaxır çərşənbədə 4 ilahi başlanğıc birləşir. Suya, oda, yelə və torpağa tapınan insan torpağın və torpaqdan xəlq olunanların oyanışına sevinir.

El inamına görə: Axır çərşənbədə paltar tikmək olmaz; qəlbə dəymək olmaz; səfərə çıxmaq olmaz;yerə isti su tökmək olmaz; dırnaq tutmaq olmaz; təzə evə köçməzlər və s.

Dostluq, barışıq, yenilik və sədaqət rəmzi olan Novruz bayramının müjdəçisi torpaq çərşənbəsi hər bir evə ruzi-bərəkət, sevincli günlər gətirsin! Qəlblərinizdən ilaxır çərşənbə tonqallarının gətirdiyi hərarət heç vaxt əskik olmasın. Bayramınız mübarək!

**Səhifənin materiallarını müxtəlif mənbələr əsasında qəzetimizin əməkdaşı Qüdrət CƏMALƏDDİNOĞLU hazırlamışdır.**

## Yaz fəsli Azərbaycana martın 20-si saat 20:15-də qədəm qoyacaq

***Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının elmi işlər üzrə direktor müavini Xıdır Mikayılov AZƏRTAC-a bildirib ki, baharın gəlişi zamanı gecə-gündüz bərabərləşir: "Həmin vaxt Günəş öz orbiti üzrə hərəkət edərək göy ekvatorunu kəsir. Yəni cənub yarımkürəsindən şimal yarımkürəsinə keçir. Bu nöqtəyə də yaz bərabərliyi nöqtəsi deyilir və Günəş bu nöqtədə olarkən gecə ilə gündüzün uzunluğu bərabərləşir. Bu zaman da yaz fəsli gəlir".***



***Yaz fəsli Azərbaycana martın 20-si saat 20:15:30-da gələcək.***